# İnqilab rəhbərinin müqəddəs Məşhəd şəhərindəki bəyanatlarının beynəlxalq cəhətləri:

**Deniznews:** Ali məqamlı rəhbərin builki söhbətlərinin əsas səciyyələrindən biri də onun beynəlxalq məsələləri əhatə etməsi idi. Həzrət Ayətullah Xamenei İrana aid olan sahələrlə bağlı ölkəmizin beynəlxalq aləmdəki makroiqtisadi mövqeyini şərh etdi.

Ali məqamlı rəhbər hər il olduğu kimi, bu yeni ildə də fərvərdinin (mart ayı) ilk günü imam Rzanın (ə) hərəmində xalq və dövlətin vəzifəli şəxsləri üçün mühüm tövsiyələri əhatə edən bir nitq söylədi.

## Beynəlxalq arenada İranın düşmənləri:

Ali məqamlı rəhbərin bu söhbətində aşkar şəkildə vurğulanan mətləblərdən biri də, bəzi Qərb ölkələrinin

İranla düşmənçilklərinin müxtəlif prizmalardan, bir daha aydınlaşdırılması oldu.

Gözləndiyi kimi, İslam inqilabının rəhbəri Amerika Birləşmiş Ştatlarını İranla düşmənlçiliyin əsas mərkəzi hesab etdi. Amerikadan sonra, İslam inqilabının rəhbəri tərəfindən Britaniya dövləti düşmən kimi tanıtdırıldı. Əlbəttə, bu məsələnin uzun keçmişi vardır. Fransaya da iki ölkə arasındakı münasibətlərin tarixini nəzərə alaraq, İranla öz arasında düşmənçilik yaratmağa cəhd etməməsi ilə əlaqədar xəbərdarlıq edildi. Ayətullah Xamenei Nikola Sarkozi iş başına gələndən sonra başlanan prosesin Fransua Olandın zamanında da davam etdiyini diqqətə çatdırdı.

Sionist rejimi haqqında da onun aşkar şəkildə İranın düşmənləri sırasında nəzərə çarpmayacaq dərəcədə cılız olması bildirildi. Beynəlxalq aləmdə aydın məsələdir ki,

hegemonluq iddiası edən bir sıra dövlətlər qüdrətin ədalətli şəkildə bölüşdürülməsi məsələsi ilə mübarizə aparırlar. Beləliklə, indiki şəraitdə həmin qüdrət mərkəzi olan Amerika İranın beynəlxalq aləmdə belə məsələlərə yenidən baxılması tələbinə qarşı kəskin şəkildə müxalifətçilik edir.

Şübhəsiz, hegemonluq iddiasında olan qüdrətlərin öz müttəfiqləri vardır. Amerika ilə müttəfiqləri arasındakı bu əlaqələr nə qədər dərin olsa, təbii olaraq onların İranla düşmənçilikləri də həddən artıq çox olacaqdır. Xüsusilə də, Amerikanın çoxdankı müttəfiqi olan Britaniyanın mövqeyi bu məsələdə tam aydındır. Nəticədə, ölkələr nə qədər beynəlxalq qüdrətin mərkəzi sayılan Amerikaya yaxın olsalar, onların İranla düşmənçiliyi bir o qədər artacaq və əksinə, nə qədər ondan kənarlaşsalar, bir o qədər İranla dostluq siyasətini seçəcəklər.

Bu perspektivdən yanaşdıqda, İranla düşmənçiliyin qüdrət və sərvətin ölkələr arasında ədalətsizliklə bölüşdürülməsindən qaylandığını demək olar. Əlbəttə, bunun kökü intibah dövründən sonrakı zamana və beynəlxalq müstəmləkəçilərin iki böyük cərəyanına gedib çıxır. "Beynəlxalq nizamın metropolu" olmaq üçün bəzi ölkələri digər ölkələrdən önə atan müstəmləkəçilik olmuşdur.

**Dünya ictimaiyyəti:**

Ali məqamlı rəhbər müqəddəs Məşhəd şəhərində etdyi çıxışında bəzi Qərb ölkələrinin özünü "dünya ictimaiyyəti" adlandırmasını ciddi şəkildə tənqid etdi. Ayətullah Xameneinin söylədiklərinə əsasən, Qərbin "dünya ictimaiyyəti" adlandırdığı ölkələr öz iradə və

istəyini bütün dünyaya məcbur etdirmək məqsədini güdən dünya kapitalist ölkələri blokundan başqa, bir şey deyil.

Beynəlxalq münasibətlər sahəsindəki mütəfəkkirlərin arasında “Dünya ictimaiyyəti”nin mahiyyəti müzakirə obyektidir. Bir çox mütəfəkkirlərin fikrincə, müasir dünyadakı ölkələr arasında mövcud olan əlaqələr sona yetmək üzrədir.

Beləliklə, Qərb çalışır ki, kapitalizmin hakimiyyəti altında olan beynəlxalq ictimai münasibətləri yeni yaranmaqda olan münasibətlərə də tətbiq etsin. Qərb bu üsulla dünya ictimaiyyətinin bir neçə yerə bölünməsi və kapitalizmin ətrafdan mərkəzə qədər davam etməsi və nəticədə, Qərbin üstünlüklərinin təmin olunmasını istəyir.

Dünya ictimaiyyətindən əldə olunan belə qərbyönlü anlayış əsla, mərkəzi qütbünü İslam dini təşkil edən İran dövləti tərəfindən qəbul edilə bilməz. İran ədalətə

əsaslanan və ədalətin formalaşdığı dünya ictimaiyyəti istəyir, nəinki, meşə qanunları əsasında idarə olunan və güclülərin zəifləri əzdiyi. Belə məsələlər İran İslam Respublikasının təfəkkürü ilə düz gəlmir.

Təbiidir ki, əgər dünya ictimaiyyətini meşə qanunları əsasında təfsir etsək, güclülər orada hökmranlıq edəcək ki, belə ictimaiyyət İrana lazım deyil. Amma dünya ictimaiyyətində məqsəd bütün dünya xalqları və onların iradə və istəyidirsə, belə cəmiyyət heç vaxt İranın mahiyyəti ilə ziddiyyət təşkil edə bilməz.

**İranın İsrailə tarixi cavabı:**

İslam inqilabının ali məqamlı rəhbəri Ayətullah Xamenei imam Rzanın (ə) zəvvarları önündəki söhbətində Sionist rejiminin İranı təhdi etməsi kimi mühüm məsələlərə toxundu. Həmin təhdidlər həqiqətdə praktiki

şəkildə deyil, sadəcə sözlər formasında özünü büruzə vermişdir. Bununla belə, inqilab rəhbərinin budəfəki cavabında yeni xüsusiyyəti vardı.

Rəhbər öncədən də təkid edərək bildirmişdi ki, İrana qarşı edilən hər növ hücuma eynilə həmin səviyyədə cavab veriləcəkdir. Amma bu dəfə açıq-aşkar İsrailin iki strateji əhəmiyyətli şəhərinin adının şəkilməsi məsələnin xüsusiyyətini bəyan edirdi.

Şübhəsiz, ali məqamlı rəhbər İran silahlı qüvvələrinin Ali Baş Komandanı kimi, bu mətləbi hərbi hesablamalarının əsasında bəyan etmişdir. Başqa sözlə, İranın bütün silahlı qüvvələri bu qənaətə gəlmişdir ki, Tel-Əviv və Hayfa kimi iki şəhəri məhv etmək o qədər də çətin deyil və hər hansı bir hücuma məruz qaldıqda, bunu həyata keçirməlidir. Bu, hücum etmək qərarına gəldikdə, Sionist rejimi başçılarının etmiş olacağı hərbi axmaqlıq və

onun aqibətinin nə ilə nəticələnəcəyini bilməsi üçün Ali Baş Komandan tərəfindən strateji qiymətləndirmə idi.

Beləliklə, Amerika Prezidenti Barak Obama işğal olunmuş Fələstin torpaqlarında olarkən İranı təhdid edənlər üçün dəqiq və şəffaf bir mesaj göndərmişdir. Əvvəla, İran cavab vermək üçün öz hədəfini aydınlaşdırmış, ikincisi, İsrailin Aralıq dənizində yerləşən ən mühüm dənizkənarı şəhərləri bu cavab üçün seçilmişdir, üçüncüsü, o iki şəhər yerlə yeksan edilmək üçün nəzərdə tutulmuşdur ki, İran raketlərinin zərbəsindən əlavə, rahatlıqla Livan hizbullah raketlərinin zərbəsinə də tuş gələ bilər və nəticədə, belə hücumlara cavab verənin təkcə İrandan ibarət olmaması da mümkündür.

Sionist rejimi tərəfindən İslam Respublikasının ciddi xəbərdarlıqlarına hələ ki, hansısa bir cavab verilməmişdir. Amma Amerika Prezidenti İsrailin təhlükəsizliyinin

himayəçisi kimi, bu xəbərdarlığı çox passiv şəkildə cavablandırmışdır. Obamanın cavabında Amerikanın Tel-Əviv və Hayfanın xilası üçün hansısa bir hazırlıq aparıldığını elan etməsindən heç bir əsər yox idi.

Digər mühüm məsələ ali məqamlı rəhbərin bu dəfə ”Əgər İsraildən yanlış hərəkət baş verərsə, iki şəhər olan Tel-Əviv və Hayfa yerlə yeksan olacaq” – deyə mesaj verməsidir, yəni İsrailin hər hansı bir hiyləgərliyi adı çəkilən iki şəhərin məhvi deməkdir, hətta Sionistlərin nəzərində kiçik həcmli hücumlar olsa belə. Rəhbərin sionistlərin təhdidlərinə qarşı verilən sonuncu cavabı bu təhdidlərin tarixində ən aydın cavabdır.

**Amerika ilə müzakirə və həssas nüvə məsələsi:**

İnqilab rəhbərinin çıxışında müzakirə olunan əsas mövzulardan biri də, Amerika ilə nüvə məsələsinin

müzakirəsi idi. Amerikalıların İran İslam Respublikası ilə müzakirə etmək istəməsinə gəldikdə isə, ali məqamlı rəhbər təkid etdi ki, onlar nüvə məsələsinin həlli yolunu tapmaq üçün məntiqli müzakirə ardınca deyillər, əksinə öz istəklərini İrana qəbul etdirməyin ardıncadırlar. Beləliklə, amerikalılar üçün müzakirə diplomatik mübarizə vasitələrindəndir, nəinki, konstruktiv dialoq və diplomatik həmkarlıq.

Məlum olur ki, Obama adminstrasiyasının qüdrət məfhumu ilə bağlı anlayışında qarşı tərəfin rəftarını mümkün olan hər vasitə ilə dəyişmək məsələsi nəzərdə tutulmuşdur. Beləliklə, əgər Obama İranla müzakirədən dəm vurursa, şübhəsiz ki, bu sahədə müəyyən planlara malikdir və onların tətbiq etdikləri sanksiyalar İranın nüvə məsələsində təslim olması üçün atdıqları addımlardan biridir.

Deməli, Amerika dövləti İranın nüvə məsələsini iranlıların milli hüququ kimi deyil, əksinə onu özü üçün problemli bir məsələ görür və bu problemin həlli üçün önündə bir sıra vasitələri nəzərdə tutmuşdur. Sanksiya və müzakirələr ayrı-ayrılıqda iki müxtəlif vasitə olmasına baxmayaraq, bir məqsədə – "iranlıların öz nüvə hüquqlarına göz yummasına" xidmət edir.

Beynəlxalq ənənələrə əsasən, müzakirə diplomatik münasibətlərdə ölkələrin dinc yolla qarşılıqlı razılaşma əldə edə biləcəyi bir vasitədir. Bu, tərəflərin ixtilaflı məsələlərin həllini tapmağa çalışması mənasındadır. Amma İran və ABŞ-a gəlincə, deməliyik ki, hərbi təhdid sayılan sanksiyaların tətbiq edilməsi, qarşılarında bütün variantların onların xeyrinə mövcud olması İranın nüvə mərkəzlərinə qarşı təxribatların edilməsi, bütün beynəlxalq konfranslarda İran əleyhinə təbliğat aparılması kimi

düşməncəsinə davranışlar elə bir situasiya yaratmışdır ki, bunları müzakirə üçün münasib mövqe hesab etmək olmaz.

Bundan əlavə, əgər mövzu həqiqətdə, İranla nüvə münaqişəsinin həlli olsa, İran faktiki olaraq Amerika ilə 5+1 çərçivəsində müzakirə edir. Əgər rəsmi Vaşınqton bu mövzunu həll etmək istəyirsə, həmin müzakirələrdə öz istəyini irəli sürə bilər. Nəticədə, nəzərə çarpan məsələ Amerikanın İranla birbaşa müzakirə təklif verməklə iki hədəfi güdməsidir:

Birincisi, beynəlxalq hegomonluq davranışını büruzə vermək, Təhlükəsizlik Şurası və Avropa ittifaqı kimi beynəlxalq ictimaiyyəti uzaqlaşdırmaq. Bu davranışlarla amerikalılar beynəlxalq aləmdə ən ixtilaflı və qlobal problemlərin beynəlxalq qurumlar tərəfindən deyil, ancaq onlar tərəfindən həll oluna biləcəyini diqqətə çatdırmaq

istəyirlər. Amerika İranla nüvə məsələsində bir başa müzakirə ilə bu problemin sona yetməsinə müvəffəq olsa, bu sahədə öz beynəlxaq hegemonluğunu qəbul etdirmək üçün ən böyük addımlardan birini atmış olacaq. Bu məsələ eynilə ərəblər və Fələstinlə İsrail barəsində də keçərlidir.

İkincisi, Amerika hegemonluğuna qarşı olan ən ciddi müxalifini dəyirmi masa arxasında müzakirəyə dəvət edərək özünə tabe etdirə bilməsi barədə dünya ictimai fikrini qane edəcək.

Obama ilə Buşun siyasi üslubunda hegemonluqlarını əsaslandırmaq baxımından fərqlər vardır. Buş hərbi gücü ilə dünyaya göstərmək istəyirdi ki, Amerika ən üstün qüdrətdir və öz hegemonluğundan əl çəkməyəcək. Bu baxımdan, İraqa hücumda Təhlükəsizlik Şurasını belə saymadı. Bu məsələləri öz xeyrinə həll edə bilməsi üçün onlar ilk növbədə İranla nüvə məsələsində razılıq əldə

etməli, eyni zamanda, ərəblərlə İsrail münasibətləri İsrailin qalib olacağı şəkildə təmin etməlidirlər.

Buna baxmayaraq, Obamanın Buşla oxşar cəhəti vardır. Buş İraqa hücum üçün qlobal iradənin qurumu kimi tanınan Təhlükəsizlik Şurasını saya salmadığı kimi, Obama da 5+1 kimi tanınan beynəlxalq qurumu İranla müzakirədən uzaqlaşdırmaq istəyir.

Həqiqətdə, bu təhlilin aydın bir nəticəsi vardır və İran üçün ikitərəfli müzakirənin nəticəsinin nədən ibarət olmasını söyləmək mümkündür. Daha dəqiq desək, müzakirələrin başlaması onun nəticəyə çatması yox, əksinə rəsmi Vaşınqton üçün "Beynəlxalq dərəcədə qələbə" deməkdir. Yəni, bu müzakirələrin qalibi öncədən məlumdur.

Bu cəhətdən, ali məqamlı rəhbər Amerika ilə birbaşa danışıqlara nikbin yanaşmadı və xarici saytların yaydığı

şayiələrə son vermək üçün təkid etdi ki, onun tərəfindən heç kim Amerika ilə müzakirələr aparmamışdır. Rəhbər bəzi dövlət nümayəndələrinə ikinci dərəcəli məsələlərdə ehtiyatı əldən verməməyi və bu siyasi xətti gözləməyi tövsiyə etmişdir.

Nüvə proyektləri ilə bağlı İslam inqilabının ali məqamlı rəhbəri Məşhəddəki çıxışında bir daha İranın nüvə silahı ardınca olmadığını vurğuladı. “Qeyri-müyyənlik prinsipi” taktikasından istifadə bu dəfə Amerikaya tutarlı bir cavab idi.

Qərb İrana inanmadığını bildirdiyi halda, biz onların məntiqi müzakirələr aparmaq istəməsi təklifinə necə inana bilərik?! Rəhbər 5+1 variantı ilə əlaqədar müzakirələrin nəticəsiz başa çatmaq istiqamətində Amerikanın təxribatçı rol oynadığına təkid etdi.

Rəhbər sadalanan məsələlərlə bağlı Amerikanın siyasi oyunlarında dəyişiklik etməsinin zəruriliyini nəzərə çarpdırdı.

İslam inqilabının ali rəhbəri "Amerikanın İranla düşmənçiliyə son qoyması" məsələsini iranlıların Amerikaya münasibətinin dəyişməsi kimi qiymətləndirdi. Şübhəsiz ki, bu məsələ tədricən formalaşa bilər və əgər formalaşsa iranlıların bunu başa düşməsi o qədər də çətin deyil.

Amerikanın İran inqilabı ilə düşmənçiliyinin 30 ildən artıq kökü vardır və bu, onların daxili və xarici siyasətinin tərkib hissəsinə çevrilmişdir. Əsas etibarı ilə, Amerika adminstrasiya və konqresinin İran İslam Respublikasının əleyhinə yürütdüyü siyasət və İranla mübarizə dominant bir mədəniyyətə çevrilmişdir ki, bu mədəniyyət və yalançı

siyasətin mahiyyətinin dəyişdirilməsi həmin oyunun dəyişdirilmə prinsipidir.

Təbii olaraq, belə bir mahiyyətin bir gecəyə aradan götürülməsini də gözləmirik, amma rəsmi Vaşınqtonun bu yöndə addım atacağını gözləyirik. Aydındır ki, atılan addımların nəticəsi və onun faydalarını da müşahidə etmək olar. Bəlkə də, son zamanlar İran əleyhinə verilən amansız sanksiyaların ləğvi bu sahədə atılan ilkin və ən zəruri addım olsun.

Hər bir halda, buna aid məsələlərdə qərar amerikalılarındır. İran 30 ildən çoxdur ki, hətta bundan da pis bir şəraitdə Amerikanın təzyiqləri müqabilində müqavimət göstərmiş və davam gətirmişdir. Təbii olaraq, yenə də İran kimi sivil və köklü bir xalqda bu bacarıq mövcuddur. Amma əgər amerikalılar İrana sanksiya tətbiq etdikləri halda, bizimlə münasibətlərinin yaxşılaşmasını

istəyirlərsə, müzakirə təklifi vermək əvəzinə, yaxşısı budur ki, oyunun dəyişdirilməsi və düşmənçiliyə son qoyma istiqamətində praktiki addımlar atsınlar.